# MƏNƏVİ TƏRBİYƏ OCAĞI

**Milli-mədəni dəyərlərimizin, yaddaş tariximizin saxlanc yeri olan muzeylərin ictimai-siyasi və mədəni həyatımızın bütün sahələrində rolu əvəzsizdir. Ulu keçmişimizdən, ata-babalarımızdan miras qalmış qiymətli sərvətlərimiz, tarixi əşyalarımız, nadir incilərimiz bu gün muzeylərdə toplanır, qorunur və gələcək nəsillərə çatdırılır.**



*Muzeylər həm də ziyarət ocağımız, mənəvi məbədgahımızdır. Tarixi şəxsiyyətlərin, tanınmış insanların, müharibə, əmək veteranlarının, şəhidlərin şərəfli həyat yolu bu gün muzeylərdə yaşayır, əbədi ünvanını tapır.*

Sirli-sehirli bu ünvana yolu düşən hər kəs əsrlərə, qərinələrə söykənən qoca dünyanın möcüzələri ilə tanış olur, qan yaddaşı təzələnir, mənən zənginləşir, sanki bir rahatlıq tapır. Muzeyimizə gələn hər bir tamaşaçıya bu hisləri aşılamaq, onların dünyagörüşünü, estetik zövqünü formalaşdırmaq məqsədilə mədəni-kütləvi tədbirlərin müasir forma və metodlarından istifadə edir, xidmət işinin səviyyəsini daim yüksəltməyə çalışırıq. 1998-ci ildə yeni müstəqil binaya köçdükdən sonra muzeyimizin fəaliyyət imkanları daha da genişlənmiş, kütlələrlə canlı əlaqəmiz artmışdır.

Tarixi günlərin, əlamətdar bayramların, yubileylərin qeyd edilməsi artıq bir ənənəyə çevrilmişdir. 2009-cu ildə və 2010-cu ilin 5 ayı ərzində muzeydə və bunlarla əlaqədar muzeydən kənar yerlərdə müxtəlif mövzularda 50-dək mədəni-kütləvi tədbir keçirilmiş, rayon fəallarının, ziyalıların, ictimaiyyətin nümayəndələrinin bu mərasimlərdə iştirakı təmin edilmişdir.

Bu tədbirlərin təşkili gənclərin hərbi-vətənpərvərlik tərbiyəsində, torpağa, xalqa, vətənə məhəbbət, milli dəyərlərimizə sədaqət ruhunda tərbiyə edilməsində böyük rol oynayır. Bu mənada, "Qarabağın qan yaddaşı" adlı sərgi xüsusi əhəmiyyət daşıyır. Burada keçirilən tədbirlərdə gənclər düşmən işğalı altında olan torpaqlarımızı azad edəcəklərinə, şəhidlərimizin qanını yerdə qoymayacaqlarına and içir, mərd, qorxmaz, mübariz Azərbaycan əsgəri olacaqlarına söz verirlər.

Qarabağ uğrunda müharibələrdə həlak olan və itkin düşən 203-nəfər Sabirabadlı şəhidin, milli qəhrəmanlarımız Mübariz Əhmədovun, Fərhad Ağayevin, 20 yanvar şəhidlərinin- Mehman Məmmədovun, Zəbulla Əliyevin, "Azərbaycan Bayrağı ordenli" Yalçın Qəhrəmanovun, Daşqın Əhmədovun, Heydər Həmidovun və başqalarının şərəfli həyat yolunu işıqlandıran guşələrin təşkili də milli-mənəvi tərbiyə işinin təbliğində böyük əhəmiyyət kəsb edir.

Bu tədbirlər mütəmadi olaraq il boyu davam etdirilir. 20 yanvar, Xocalı faciəsi, 31 mart azərbaycanlıların

soyqırımı, torpaqlarımızın işğalı tarixi və s. faciələrdən bəhs edən kitab, jurnal, qəzet materialları, fotoşəkillər, xəritələr, həmçinin Qarabağ müharibəsində həlak olan şəhidlərin şəxsi əşyaları və arxiv sənədlərini nümayiş etdirilir, "Ordun varsa, yurdun var", "Vətən bizi səsləyir", "Azadlığa gedən qanlı yol", "Tariximizin və taleyimizin qan yaddaşı", "Xalqımızın istiqlal tarixindən" və s. mövzuda mühazirələr oxunur. Muzeydə və muzeydən kənar yerlərdə keçirilən bu sərgilərə baxışda 12000-dən artıq tamaşaçı iştirak etmişdir.

Xalqımızın ən qədim bayramı olan Novruzun qeyd olunduğu ümumrayon tədbirində muzeyimizin kollektivi də öz əməyini əsirgəmir, tarixiliyini, qədimliyini, adət-ənənələrini özündə yaşadan eksponatların sərgisini təşkil edir, baharın atributları olan səməni qoyur, şirniyyat xonçaları bəzəyirlər.

Əlamətdar günlərin, bayramların çoxluq təşkil etdiyi may ayında əməkdaşlarımız daha gərgin, daha məsuliyyətlə çalışırdı. Qələbə gününün, ulu öndər Heydər Əliyevin doğum gününün, muzeylər aksiyasının və Beynəlxalq muzeylər gününün, Respublika gününün qeyd edilməsi məhz bu aya təsadüf edir. Təbiətin ən gözəl çağında, çöl-çəmənin, gül-çiçəyin əsrarəngiz donа büründüyü bir vaxtda bu bayramların keçirilməsi insanların əhval-ruhiyyəsinin yüksəlməsinə, istirahətlərinin mənalı təşkilinə xidmət edir.

Azərbaycanın müxtəlif ali məktəblərində, təhsil ocaqlarında çalışan Sabirabadlı ziyalılarla, rayonun ictimai-siyasi həyatında iz qoyan görkəmli şəxsiyyətlərlə, əmək qəhrəmanları, iş adamları ilə də əlaqələrimizi möhkəmlədir, onlarla mütəmadi olaraq görüşlər təşkil edirik. Muzeyimizin fəxri qonaqları olmuş iqtisad elmləri üzrə professor, əməkdar iqtisadçı alim Bəybala Xankişiyev, fəlsəfə elmləri doktoru Şəmil Qasımlı, dosent Razim Zeynalov, dosent, texnika elmləri namizədi Mirhəmid Həmidov, dosent Şakir Bədəlov, iş adamı Gülağa Nadirov, Sosialist Əməyi Qəhrəmanı, Prezident təqaüdçüsü Zəminə Aslanova, uzun illər dövlət orqanlarında fədakarlıqla çalışan rayon ağsaqqallar şurasının sədri Şərif Məmmədbəyovla keçirilmiş görüşlər, onların həyat və fəaliyyətini əks etdirən sərgilərin nümayişi ictimaiyyətin muzeyə marağını artırmış, kütlələrlə muzey arasında sıx əməkdaşlığın yaranmasına səbəb olmuşdur. Bütün bu işlər televiziya proqramlarında, mətbuatda işıqlandırılmış, videolentlərə və disklərə köçürülmüşdür. Muzeyimiz digər muzeylərlə əməkdaşlığı genişləndirmək və təcrübə mübadiləsi aparmaq məqsədilə turist səfərləri və ekskursiyalar təşkil edir.

Beyləqan, İmişli, Saatlı, Salyan, Neftçala, Şirvan, Qəbələ tarix-diyarşünaslıq muzeylərinə, Azərbaycan tarixi muzeyinə, Azərbaycan xalçası və xalq tətbiqi sənəti dövlət muzeylərinə, istiqlal, musiqi mədəniyyəti dövlət muzeylərinə R.Mustafayev adına İncəsənət və s. muzeylərə səfərlərimiz, əməkdaşların Mədəniyyət işçilərinin hazırlıq və ixtisasartırma mərkəzində kurslarda iştirakının təmin edilməsi onların muzey işi sahəsində bilik və bacarıqlarının artmasına, daha səmərəli metodlarla çalışmalarına köməklik göstərir.

Bu il muzeyimizin yaradılmasının 30 illiyi tamam olur. Yubiley münasibətilə geniş tədbirlər planı tərtib etmiş və bu mərasimin təntənəli şəkildə keçirilməsi üçün ciddi hazırlıq işləri aparırıq. Qeyd edək ki, muzeyimizin 20 və 25-illik yubileyləri ilə əlaqədar keçirilən ədəbi-bədii gecələr, dəyirmi masa arxasında görüşlər də yaddaqalan və unudulmaz olmuşdur.

**Muzey əməkdaşları nümunəvi xidmətlərinə görə Mədəniyyət və Turizm Nazirliyi, Sabirabad Mədəniyyət və Turizm Şöbəsi və Mədəniyyət İşçiləri Müstəqil Həmkarlar İttifaqı rayon komitəsi tərəfindən fəxri fərmanlar və müxtəlif hədiyyələrlə mükafatlandırılmışdır.**

**Şükufə ƏSGƏROVA,**
***Sabirabad rayon tarix-diyarşünaslıq muzeyinin direktoru***

